## Biznes portalı icazə sistemini tənzimləyəcək

Biznes mühiti ildən-ilə yaxşılaşan Azərbaycanda yeni müəssisələr yaranır, iş yerləri artır, vergi ödəyicilərinin sayı çoxalır. Ancaq elə də olur ki, bəzən iş adamları məlumatsızlıq ucbatından yeni fəaliyyət növlərini təşkil etməkdə çətinlik çəkir, problemlərlə üzləşirlər. Belə çətinliklərin aradan qaldırılması Azərbaycan hökumətinin daim diqqət mərkəzindədir. Ölkə başçısının bu cür məsələlərlə bağlı fərman və sərəncamları, tapşırıqları ilə əlaqədar həyata keçirilən tədbirlər artıq müsbət nəticələrini verir. Hər bir iş adamının istənilən fəaliyyət növü ilə bağlı qanunvericiliklə müəyyən olunmuş qaydada icazə və lisenziyalar əldə etmək imkanlarının asanlaşdırılması üçün tədbirlər görülür, bu sahədə şəffaflığın təmin olunması ön plana çəkilir. Azərbaycanda bəzi fəaliyyət növləri ilə bağlı icazə sisteminin tənzimlənməsi üçün biznes portalının yaradılması ideyası da məhz bu məqsədlərə xidmət edir. Artıq mart ayının ikinci yarısında portalın tam hazır olacağı gözlənilir. İqtisadi İnkişaf Nazirliyindən verilən məlumata görə, portalın yaradılmasının əsas qayəsi informasiya-kommunikasiya texnologiyaları sahəsində qabaqcıl nailiyyətlərin geniş tətbiqi yolu ilə ölkə vətəndaşlarının, eləcə də sahibkarların biznesin aparılması üçün lisenziya və icazələr sahəsində məlumatlılıq səviyyəsini yüksəltməkdir.

Portalın imkanlarından istifadə edərək hər hansı sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən iş adamı, fəaliyyət növündən asılı olaraq, tələb olunan icazə xarakterli sənədlər, onların alınması prosedurları, təqdim edilməli sənədlər, həmin icazələrin verilmə və qüvvədə olma müddətləri, bu icazələri verən dövlət orqanları və sahibkarlıq sahəsində hazırlanan qanunvericilik aktlarının layihələri ilə bağlı məlumatları vahid mənbədən əldə edə biləcəklər. Bununla da sahibkarlar öz biznesinin planlaşmasında, risklərin azalmasında praktiki vasitə əldə edəcəklər.

Portal sahibkarlıq subyektləri, xüsusilə də kiçik və orta biznes üçün nəzərdə tutulub. Burada mərkəzi və yerli icra hakimiyyəti orqanlarının verdikləri icazələr barədə məlumatlar (icazə növünün adı, hüquqi əsası, tələb edilən sənədlərin siyahısı, icazə verən orqanın adı, hüquqi ünvanı və s.) öz əksini tapacaq. Bununla yanaşı, portalda «Sahibkarlıq sahəsinə aid qanunvericilik aktlarının layihələri» xidmət bölməsi yaradılacaq, mərkəzi və yerli icra hakimiyyəti orqanlarının hazırladığı sahibkarlıq sahəsinə aid olan qanunvericilik aktlarının layihələri yerləşdiriləcək və göstərilən layihələrin mətninin bir ay müddətində saxlanılması təmin ediləcək.

Rəşad SADIQOV